AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
XƏZƏR UNİVERSİTETİ

HASVET BAYTARLIQ TƏBABƏTİ FAKÜLTƏSİ
BAYTARLIQ TƏBABƏTİ DEPARTAMENTİ

DAMAZLIQ İŞİ

SİLLABUS

Tədris ili və semestri
2025/26-ci tədris ilinin payız semestri

Müəllim: Vüsal Abbasov

Razılaşdırılmışdır

Təsdiq edirəm

Dekan vəzifəsini icra edən :
DVM Çiçək Əliyeva

Ümumi məlumat	**Fənnin adı, kodu və kreditlərin sayı**	VET 331 Damazlıq işi, 4 AKTS	
	Departament	Baytarlıq Təbabəti	
	Proqram (bakalavr, magistr)	Bakalavr	
	Tədris semestri	2025/26-ci tədris ilinin payız semestri	
	Fənni tədris edən müəllim	Vüsal Abbasov	
	E-mail	Vusalabbasov8414@gmail.com	
	Telefon	(+994 50) 290 04 31	
	Mühazirə otağı/Cədvəl	Bakıxanov qəsəbəsi, Elşən Mehdiyev küç. 478.	
	Məsləhət saatı	Tələbələrlə razılaşmadan sonra vaxt təyin ediləcək	
Prerekvizitlər			
Tədris dili	Azərbaycan dili		
Fənnin növü	Məcburi		
Dərsliklər və əlavə ədəbiyyat	***Əsas dərsliklər:*** ***1.*** Q.Q.Abdullayev m.i.əliyev - heyvandarlığın əsasları ali və orta ixtisas məktəb tələbələri üçün dərslik. B A K I - 2012 2. Q.Q.Abdullayev m.i.əliyev qoyunçuluq ali və orta ixtisas məktəb tələbələri üçün dərslik. B A K I – 2012 3. Professor: Q.Q.Abdullayev kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi. BAKI - 2018 4. Hayvan yetiştiriciliği ve sağlığı alanı hayvancılığa giriş, 9 cu ders kitabı, yazarlar Elif Kömür Velioğlu, Eray Şentürk. 2020 ***Online vəsaitlər:*** -https://agroeconomics.az/az/article/61/sudluk-maldarliqda-damazliq-isinin-dovlet-tenzimle/ -https://e-qanun.az/framework/13861 -https://crv4all.com/en		
Kursun vebsaytı	***https://crv4all.com/en*** ***https://www.youtube.com/results?search_query=breedinig+programs*** ***https://en.wikipedia.org/wiki/Fish_farming***		
Tədris metodları	**Mühazirə**		x
	Seminar		x
	Qrup müzakirəsi		x
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Fəallıq	Semestr ərzində	10
	Tapşırıq və testlər (quiz 1,2,3)	Semestr ərzində	10
	Davamiyyət	Semestr ərzində	10
	Aralıq imtahanı		30
	Final imtahanı		40
	Yekun		**100**

Kursun təsviri	Heyvandarlıqda damazlıq işinin əsas vəzifəsi yüksək məhsuldar heyvanların yetişdirilməsi, mövcud cinslərin yaxşılaşdırılması, yeni və daha səmərəli cinslərin yaradılmasıdır. Bu zaman damazlıq cins heyvanlar sənaye üsulu ilə saxlanmaq üçün yüksək adaptasiya xüsusiyyətlərinə malik olmalı, süd və ət istehsalı üçün tətbiq edilən bütünlüklə avtomatlaşdırılmış və mexanikləşdirilmiş sənaye texnologiyasının tələblərinə cavab verməlidir.
Kursun məqsədləri	***Ümumi məqsəd:*** Heyvanların damazlıq məqsədilə yetişdirilməsi və təkrar istehsalının təmin edilməsi damazlıq işinin əsasını təşkil edir. Damazlıq işi kənd təsərrüfatı heyvanlarının təsərrüfat faydalı əlamətlərinin yaxşılaşdırılmasına yönəldilmiş zootexniki, seleksiya-genetik və təşkilati tədbirlərin kompleks sistemindən ibarətdir. Bu kursu öyrənən tələbələr bütün heyvan və quş növləri (iri və xırda buynuzlu heyvanlar, atlar, dəvələr, quşlar, dovşanlar, xəz dərili heyvanlar, arılar, balıqlar və digər) üzrə üzrə qısa və uzunmüddətli xüsusi seleksiya-damazlıq proqramları hazırlayıb həyata keçirməyi öyrənir. ***Xüsusi məqsədlər:*** - Tələbələrin akademik potensialını aşkarlamaq, onları elmə həvəsləndirmək və onların öz potensiallarını realizə etməyə yardımçı olmaq. - Tələbələrə bioloji tədqiqatların hazırkı və gələcək elmin inkişafı üçün vacibliyini mənimsətməkdir. -Tələbələrin kursda iştirakını həvəsləndirmək, qarşılıqlı hörmət və anlayış mühitini təmin etmək.
Tədrisin (öyrənmənin) nəticələri	**Kursun sonunda tələbələr nəyi biləcəklər:** - Ayrı- ayrı heyvan cinsləri üzrə damazlıq istiqamətlər - İnbridinqinqin mənfi və müsbət cəhətləri - heyvandarlıqda damazlıq işi zamanı diqqət yetiriləsi məqamlar - Müassir damazlıq proqramları
Qaydalar (Tədris siyasəti və davranış)	**<u>Dərsin təşkili</u>** - Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır. - Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir. - Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (***Quiz***) yoxlanılacaqdır. - Seminar məşğələləri zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri <u>Şifahi və yazılı sorğunun keçirilməsi</u> ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır (***Fəallıq***). **<u>Ümumi qaydalar</u>** **Davamiyyət** Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. **Gecikmə** Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. **Yoxlama işi (*Quiz*)** Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər. **İmtahanlar**

	Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir. İmtahanlar kumulyativ xarakterli olmalıdır. Aralıq və yekun imtahanların mövzuları tələbələrə imtahandan öncə verilir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur. **Tələbənin kursu başa vurması** 60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir. **İmtahan qaydalarının pozuntuları** İmtahanlarda mövcud qayadaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur. **Dərslərdə davranış** Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir. Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. ***Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.***

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Fənnin mövzuları	Dərsliklər/Tapşırıqlar
I	Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi. Heyvanların mənşəyi və əhliləşdirilməsi.	*Əsas dərslik: 1, bölmə 2* *Dərslik 4 bölmə 2*
II	Kənd təsərrüfatı heyvanlarının eksteryer konstitusiyası. Kənd təsərrüfatı heyvanlarının fərdi inkişafı. Kənd təsərrüfatı heyvanlarının istifadə müddətləri. Kənd təsərrüfatı heyvanlarının əsas məhsuldarlığı.	*Əsas dərslik: 1, bölmə 2.* *Dərslik 4 bölmə 2*
III	Seçmə və taylaşdırma.	*Əsas dərslik: 1, bölmə 2, fəsil 2.*
IV	Cins haqqında anlayış. Cinsin təsnifatı.	*Əsas dərslik: 1, bölmə 2, fəsil 3.*
V	Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi üsulları və texnikası. **Quiz 1**	*Əsas dərslik: 1, bölmə 2, fəsil 4.*
VI	Damazlıq işi və formaları.	*Əsas dərslik: 1, bölmə 2, fəsil 5.*
VII	Qaramal. Qaramalın bioloji xüsusiyyətləri. Qaramal cinsləri..	*Əsas dərslik: 1, bölmə 4.*
	Aralıq imtahanı	
VIII	Qoyunların və keçilərin xalq təsərrüfatı əhəmiyyəti,bioloji xüsusiyyətləri və yetişdirilmə texnikası.	*Əsas dərslik: 1, bölmə 5.* *Dərslik 3 bölmə 3*
IX	Elektron cütləşmə proqramları, cütləşdirmənin əsas prinsipləri	***https://crv4all.com/en***

X	Quşçuluq. Onların bioloji xüsusiyyətləri. Quşçuluqda damazlıq işi,saxlanılması və bəslənməsi. **Quiz 2**	*Əsas dərslik: 1, bölmə 6, fəsil 1,2,3. Dərslik 4 bölmə 4*
XI	Camışçılıq, zebuçuluq onların bioloji xüsusiyyətləri , Onlardan məhsul istehsalı.	*Əsas dərslik: 1, bölmə 8, fəsil 1.*
XII	Atçılıq. Biolji xüsusiyyətləri, respublikamızda vəziyyəti. Atların cinsi yerişkənlik cütləşmə yaşları. Atların yemləndirmə və saxlanılması.	*Əsas dərslik: 1, bölmə 9, fəsil 1,2,3.*
XIII	Balıqların bioloji xüsusiyyətləri. Diri balığın təsnifatı. Balığın yemləndirilməsi. Balıq yetişdirən göllərin xüsusiyyətləri. Göl balıqçılıq sistemi.	*Əsas dərslik: 1, bölmə 11, fəsil 5.*
XIV	Krolikçilər. Kroliklərin bioloji xüsusiyyətləri..	*Əsas dərslik: 1, bölmə 11, fəsil 1.*
XV	Arıçılıq. Arıların yetişdirilməsi. Arıların saxlanma sistemi.Arıçılıqda damazlıq işi. Balıqçılıq, balıq yetişdiriciliyi, balıqların saxlanılma sistemi	*Əsas dərslik: 1, bölmə 10, fəsil 1,2,.*
<u>Final imtahanı</u>		

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.